# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 46

**Bakı şəhəri** "28" dekabr 2017 il

Energetika sahəsində beynəlxalq təşkilatların dəstəyi ilə həyata keçirilən islahatyönümlü layihələrin icrası və əlaqələndirilməsi üzrə İşçi Qrupun yaradılması haqqında

"Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"ndə beynəlxalq təcrübəyə əsaslanaraq yanacaq-energetika sahəsində müasir idarəetmə prinsiplərinin tətbiqi və qanunvericilik aktlarının bu prinsiplərə uyğunlaşdırılması istiqamətində tədbirlər nəzərdə tutulmuşdur.

Qeyd edilən istiqamətlər üzrə Energetika Nazirliyi tərəfindən həyata keçirilən tədbirlər Avropa İttifaqının "EU4Energy" Proqramı çərçivəsində beynəlxalq təşkilatlar, habelə Avropa Yenidənqurma və İnkişaf Bankı və Asiya İnkişaf Bankı kimi maliyyə təşkilatları tərəfindən dəstəklənməkdədir.

Energetika Nazirliyi tərəfindən yanacaq-energetika sahəsində beynəlxalq və regional təşkilatların texniki və maliyyə dəstəyi ilə həyata keçirilən islahatyönümlü layihələrin icrasının təmin edilməsi və əlaqələndirilməsi, icra vəziyyətinə nəzarət edilməsi, icrasına texniki və maliyyə dəstəyi tələb olunan layihələr barədə təkliflərin hazırlanması məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Yanacaq-energetika sahəsində beynəlxalq təşkilatların dəstəyi ilə həyata keçirilən islahatyönümlü layihələrin icrası və əlaqələndirilməsi üzrə aşağıdakı tərkibdə İşçi Qrupu yaradılsın:

**İşçi Qrupunun rəhbəri :**

Natiq Abbasov - Azərbaycan Respublikası energetika nazirinin müavini;

**İşçi Qrupunun rəhbərinin müavini:**

| | |
|---|---|
| Zaur Məmmədov | - Azərbaycan Respublikası energetika nazirinin müşaviri; |

**İşçi Qrupunun üzvləri:**

| | |
|---|---|
| Esmira Cəfərova | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri; |
| Xalidə Məsimova | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri şöbəsinin müdiri; |
| Ələsgər Həsənov | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri şöbəsinin müdir müavini; |
| Elxan Kərimov | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Hüquqi münasibətlər şöbəsinin Hüquqi ekspertiza sektorunun müdiri; |
| Akif Əfəndiyev | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji siyasəti və yanacaq-enerji resursları şöbəsinin baş məsləhətçisi; |
| Kamilə Rəhimova | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Elektroenergetika şöbəsinin böyük məsləhətçisi; |
| Elmin Xəlilov | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Elektroenergetika şöbəsinin aparıcı məsləhətçisi; |
| Nərgiz Bağırlı | - Azərbaycan Respublikası Energetika Nazirliyinin İqtisadiyyat, elm və innovasiyalar şöbəsinin böyük məsləhətçisi; |
| Gülnar Ələkbərova | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət proqramlarının hazırlanması və icrasına nəzarət şöbəsinin məsləhətçisi. |

2. İşçi Qrupuna tapşırılsın ki:

2.1. hal-hazırda beynəlxalq təşkilatların dəstəyi ilə həyata keçirilən layihələrin icra vəziyyətini müəyyənləşdirsin, layihələrin müəyyən edilmiş müddət ərzində icrasının yekunlaşdırılması üçün lazımi tədbirləri həyata keçirsin;

2.2. yanacaq-energetika sahəsində gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan və beynəlxalq təşkilatların dəstəyinə ehtiyac duyulan layihələri nazirliyin struktur bölmələri ilə razılaşdıraraq Azərbaycan Respublikasının energetika nazirinə təqdim etsin;

2.3. gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan layihələrə dəstək verilməsi məqsədilə beynəlxalq təşkilatlarla danışıqların aparılmasını təmin etsin;

2.4. zərurət yarandığı təqdirdə layihələrin icra prosesinə ekspert və mütəxəssislərin cəlb olunmasını təmin etsin;

2.5. layihələrin icrası üzrə beynəlxalq təşkilatların və əlaqədar dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsini və icraya nəzarətin həyata keçirilməsini təmin etsin;

2.6. həyata keçirilən layihələrin icra vəziyyətinə dair məlumatları mütəmadi olaraq Azərbaycan Respublikasının energetika nazirinə təqdim etsin.

3. Ümumi şöbə (Elmira Rzayeva) bu Əmrin surətinin nazirliyin bütün struktur bölmələrinə, Dövlət Qaz Nəzarəti və Dövlət Enerji Nəzarəti İdarələrinə, Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinə çatdırılmasını təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**